*Kürsümxanım Tahirli. Cənubi Azərbaycan ədəbiyyatında ictimai-siyasi lirika // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.110-114.*

UOT: 82.0

**Kürsümxanım Tahirli**
*dissertant*
*Azərbaycan Dillər Universiteti,*
*Bakı şəhəri, Rəşid Behbudov küçəsi 134*
*tahirli.kursumxanim@gmail.com*

# CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA İCTİMAİ-SİYASİ LİRİKA (1980 – 1990-cı illər)

**Açar sözlər:** *Cənubi Azərbaycan, inqilab, ictimai-siyasi lirika, poeziya*
**Key words:** *South Azerbaijan, revolution, social-political lyrics, poetry*
**Ключевые слова:** *Южный Азербайджан, революция, социально-политическая лирика, поэзия*

*1979-cu ildə Pəhləvi rejiminin süqutundan sonra Cənubi Azərbaycanın ictimai-siyasi həyatında milli şüurun pərvazlanması, milli mənliyin təsdiqi, Vətənin tərənnümü kimi məsələlər poeziyada geniş vüsət aldı. Ölkədə baş verən ictimai-siyasi proseslər, demokratik ideyaların tərənnümü, xalqın həyatı, ağır məişəti, siyasi dəyişikliklərin gətirdiyi çətinliklər poeziyasının başlıca mövzusuna çevrildi.*

İran mühitində ictimai-siyasi proseslərin fonunda xalqın inqilabi əhval-ruhiyyəsi nəsr əsərlərinə nisbətən poeziya nümunələrində daha çox öz ifadəsini tapırdı. İnqilabi ruhda köklənmiş şairlər şeirlərini fars dilində deyil, ana dilində qələmə alır və mətbuat orqanlarında çap etdirirdilər. Bu dövrdə poeziya yalnız məzmun dərinliyi ilə deyil, mövzu zənginliyi ilə diqqət çəkir. Bu zənginləşmə şeirlərin üslub müxtəlifliyində, janrların fərqliliyində, məzmunun daha geniş məna kəsb etməsində özünü göstərirdi. Yeni yaranan poeziya nümunələrində əsasən şahlıq quruluşu, istibdad rejimi tənqid olunurdu. İstibdad rejimindən fərqli olaraq yeni şəraitdə şairlər sətraltı mənalardan, rəmzlərdən istifadə etmədən açıq şəkildə fikirlərini bildirir, hakim dairələri tənqid edir, insanları mübarizəyə səsləyirdilər.

İran inqilabından sonra Cənubi azərbaycanlılarda millətsevərlik, türkçülük meyilləri, milli özünəqayıdış hissləri daha da güclənməyə başladı. Bu, əsasən, aşıq poeziyasında, ictimai mövzuda yazılan şeirlərdə özünü daha çox göstərirdi. 1980-1990-cı illərdən başlayaraq xalqın milli mənlik şüurunun oyanışı ədəbi prosesdə də canlanma yaratdı. Ədəbiyyata yeni nəsil, yeni dalğa gəldi. Bu dövrdə yazıb-yaradan şairlər lirik duyğuların tərcümanı olmaqla yanaşı, cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrin gətirdiyi çətinlikləri, mürəkkəb və ziddiyyətli məqamları, xalqın çətin həyat şəraitini lirik boyalarla qələmə alırdılar.

Aqşin Ağkəmərli, Sədyar Eloğlu, Taryel Ümid, Araz Əhmədoğlu, Mehdi Arifi, Azadə Darai, Türkan Nəsim, Piruz Dilənçi, Saplaq, Hadi Qaraçay, Kərim Məşrutəçi Sönməz və başqaları haqq səslərinin dünyaya bəyan edilməsi üçün çalışırdılar.

Cənubi Azərbaycan poeziyasında Vətənə, onun hər qarışına tükənməz məhəbbətin tərənnümü vardır. Vətənin ağır günlərində fədakarlıq, qəhrəmanlıq göstərən şairlər öz yaradıcılıqlarında vətən sevgisini ürək yanğısı ilə qələmə almışlar.

XX əsrin sonlarında Cənubi Azərbaycan poeziyasının nümayəndələrindən biri olan Sədyar Eloğlu “Mərd elimiz var” adlı qəzəlində elinin igid oğulları ilə qürrələnir, Qaflantı, Savalan, Səhənd kimi şairlərin varisi olması ilə fəxr etdiyini dilə gətirir:

*Yadlar bunu bilsin ki, şanlı elimiz var,*
*Al qanlı Araz tək hələ daşqın selimiz var.*
*“Zeynəb paşamız”, qoç “Nəbimiz” ölsə də bilsin,*
*“Eyvaz” kimi minlərlə ərimiz, min “dəlimiz” var.*
*Qoşqar, Savalan şanlı Səhənd övladıyıq biz,*
*Müşküllərə faiq gözəlim mərd əlimiz var [7, s. 563]*

Göründüyü kimi, bu şeirdə şair Vətəni ilə fəxr edir, Zeyneb paşa, Nəbi kimi igidlər ölsə də, hər zaman Arazı qoruyan döyüşkən övladların olduğunu, yalnız qəlbində ayrılıq həsrəti çəkdiyi Araz nisgili ilə yanıb – tutuşduğunu qeyd edir. Eyni zamanda, Sədyar Eloğlu Azərbaycan tarixinə qəhrəmanlıq, dönməzlik simvolu olaraq daxil olmuş “Zeynəb paşa”, “Nəbi”, “Koroğlu”, “Səttarxan” kimi qəhrəmanların adlarını qeyd etməklə öz elinin oğullarını mübarizəyə, döyüşə çağırır.

“Dənizdən bir damla”, “Dondurmaçı”, “Bizi yaşadan tarix”, “Söyüd ağacı”, “Şəngül, Məngül”, “Kibritçi qız” kitablarının müəllifi olan Aqşin Ağkəmərlinin “Vətən” şeirində deyir:

*Vətən, səndə gözüm qaldı,*
*Deyilməmiş sözüm qaldı.*
*Həsrətinlə düşdüm yola,*
*Uca – uca dağlarla qol-qola*
*Atmışam hər fikri başımdan,*
*Heyran qalmışam.*
*Torpağımdan, daşımdan*
*Mən demişəm, qanım vətən,*
*Mən demişəm, canım vətən [1, s. 157].*

Müəllifin fikrinə əsaslanaraq qeyd etmək olar ki, güneyli - quzeyli Azərbaycan xalqı hər zaman ruhunda, varlığında bütövlüyü, birliyi qoruyub saxlamış, həmişə Vətən uğrunda mübarizə aparmışlar. Şair Təbrizi, Muğanı, Ərdəbilidən ayrıla bilmədiyini, Arazda gözü qaldığını deməklə yanaşı, Şuşanı, Laçını da can yanğısı ilə xatırlayır, deyə bilmədiyi, ürəyində nə qədər sözlərinin qaldığını söyləyir.

Cənubi Azərbaycan ədəbiyyatında “Nazir” təxəllüsü ilə tanınan Məmmədrza Məlikpur da yaradıcılığının böyük bir qismini Vətənə, ikiyə parçalanmış xalqın taleyinə həsr etmişdir. O, “Azərbaycan” adlı şeirində deyir:

*Dünya varkən Azərbaycan var olsun,*
*Düşmənləri zəlil olsun, xar olsun,*
*Ağam Əli görüm ona yar olsun.*
*Qurban olaq torpağına, daşına,*
*Pərvanə tək dur dolanaq başına [7, s. 585].*

Şairin Azərbaycanın bütövlüyünə həsr etdiyi bu şeir də düşmənlərin nə qədər cəhd etsələr də, iki yerə parçalanmış xalqı bir-birindən qopara bilməyəcəyinə, hər zaman düşmənə qarşı mübarizədən çəkinməyəcəklərinə, Peyğəmbərin elçisi olan Həzrəti Əlinin də onlara yar və yardımçı olacağına inanır.

Məmmədrza Məlikpur etiraf edir ki, o, Azərbaycanın həm cənubunu – Ərdəbil, Zəncan, Muğan, Xoy, Salmas, Astara, Xalxal, həm də şimalını – Şəki, Şirvan, Gəncəni bir- birindən ayırmamış, eyni məhəbbət ilə hər ikisini vəsf etmişdir.

*Gəlin, gəlin daşlıqları sovuşaq,*
*Sellər kimi bir–birinə qovuşaq,*
*Əgər fələk düz deməsə boğuşaq,*
*Ahay! Gəlin ayıq olaq yatmayaq,*
*Əlbir olaq qara günə batmayaq [7, 585].*

Şairin bu cür üsyankar, mübariz çıxışı, "Gəlin ayıq olaq yatmayaq", "Əlbir olub qara günə batmayaq" ifadələrini işlətməsi parçalanmış Azərbaycanı birləşdirməyə, bütövləşdirmək çağırışı xalqın əsrlərlə ayrılıq və həsrətindən doğan nisgil və etirazını ifadə edir.

Cənubi Azərbaycan poeziyasının sayılıb, seçilən nümayəndələrindən biri də Hadi Qaraçay olmuşdur. Hadi Qaraçay da milli kimliyinin, ana dilinin, ata yurdunun təəssübkeşidir. Bu təəssübkeşlik onun əsərlərində də duyulmaqdadır: "Ədəbi dil Milli Azadlıq Hərəkatının simvoludur, hərəkatda sağlam möhürünü vurub. Türk-fars savaşı vurub öldürmək deyil, ideoloji bir savaşdır...." [6, s.13]. "Sürgünlük" şeirində də şair bu məsələyə toxunmuşdur:

*Artıq on yeddi il keçdi.*
*Ərəb çöllərinin sürgünündən*
*Dönmədi yazlıq buludlar.*
*Kollar güllədi yurdun qara torpaqlarında.*
....
*Eşq diri basdırılmış düşmən kimidir...*
*Nə sevinci sevinc,*
*Nə dərdi dərd.*
*Ata ətdən danışmaq,*
*İtə arpadan.*
*Səndən*
*Kimə danışım sevgilim? [6, s. 91]*

Bu şeirdə İran ərazisində yaşayan Azərbaycan türklərinin yaşamı, atın qarşısına ət, itin qarşısına ot qoyulmuş bu dünyanın bütün sivil və qeyri – sivil xalqların əhval – ruhiyyəsi sözlə ifadə olunmuşdur [6, s. 14].

Müasir Cənubi Azərbaycan poeziyasının başlıca istiqamətini realizm təşkil edir. Ölkə miqyasında dini baxışların, mistik fikrin geniş miqyasda təbliğinə baxmayaraq, çağdaş sənətdə həyata ayıq və nikbin baxış hakim mövqe tuturdu.

Cənub ədəbiyyatında daha çox "İsanın son şamı şairi" adı ilə tanınan Kərim Məşrutəçi Sönməzin xalqının mövcud durumuna qarşı etiraz motivi və üsyan duyğuları ilə zəngin olan orijinal üslubda, təsirli bədii dildə qələmə aldığı "Sənsizləmişəm" şeirində aydın ifadə olunur və bu şeir Azərbaycan poeziyasının ən gözəl nümunələrindən sayılır :

*Dərd məni yandırır, amma odu yox,*
*Odu ağzımda həyatın dadı yox.*
*Demirəm dərdlər içində adı yox,*
*Deyirəm mən belə mənsizləmişəm..." [2, s. 178].*

Görkəmli yazıçı Mirzə İbrahimov, Sönməzin məşhur "Sənsizləmişəm" şeirini xüsusi bir həssaslıqla təhlil edir: "Cənub yazıçı və şairlərini yandıran, ürəklərini dağlayan budur ki, yüz

illərlə İran şahları və hakim dairələri ancaq Azərbaycandan nə qoparacaqları ilə maraqlanmışlar, onun şəhər və kəndlərini abad etmək, xalqının güzəranını yaxşılaşdırmaq, uşaqlarını məktəblə, xəstələrini həkimlə və dərmanla təmin etmək kimi adi humanist qayğılardan uzaq olmuşlar. Öz qələm yoldaşları kimi şair Sönməzin də ürək ağrısı ilə dolu sözlərini anlamaq duymaq çətin deyil: [11]

*Ay mənim mənliyim! İmdadıma yet!*
*Bircə gəl, mənlə qovuş, dadıma yet!*
*Məni bas bağrına, fəryadıma yet!*
*Bilmisən ki, necə sənsizləmişəm! [2, s. 178].*

Ayrılıq, həsrət, Vətəndə vətənsizlik dərdi nisgilli qələm sahiblərinin ən kövrək, həssas yanaşdığı bir məqamdır. Sönməz də Vətənin, xalqın mənliyini, ləyaqətini öz mənliyi, dərdini şəxsi dərdi sayan, fəryad qoparan vətənpərvər söz ustadıdır.

*Göründüyü kimi, uzun illər Cənubi Azərbaycan şairləri qadağalar qoyulduğu bir vaxtda yazıb-yaratmağa başlamışlar. Belə bir mühitdə poeziyanın yüksək bəşəri hisslərdən, milli mədəniyyət, doğma vətən, ana dili və sairədən söhbət açması çox çətin idi. Bu səbəbdən bir çox şairlər, sözünü deməyə cəhd göstərən xalqın nümayəndələri həbsə düşür, işgəncələrə məruz qalırdılar. Lakin İslam inqilabından sonra poeziyada ədəbi intibah başladı. Artıq Vətən sevgisini açıq şəkildə dilə gətirən şairlərimiz, mətbuat orqanlarında da şeirlərini dərc etdirməyə başladılar. Ədəbiyyatda geniş vüsət alan ictimai-siyasi lirika ədəbi zəminin formalaşmasına, yeniləşməsinə və inkişafına təkan verdi.*

**Ədəbiyyat:**

1. Ağkəmərli A. Öpdüm Arazı. Seçmə şeirlər. Bakı: Elm və təhsil, 2016.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. IV cild. Bakı: Elm, 1994.
3. Əhməd V. Cənubi Azərbaycan poeziyası (1950–2010). Bakı: MBM, 2014.
4. Əliqızı A. Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri: 1946–1990-cı illər. Filol. e. d-ru a. dər. al. üçün təq. ol. dis. Bakı: BDU, 1993.
5. Əmirov S. Cənubi Azərbaycan Milli-demokratik ədəbiyyatı: (1941-1990-cı illər). Bakı: Elm, 2000.
6. Qaraçay H. Barışa inanma, Fərihcəm!... Bakı: Xan, 2017.
7. Parçalanmış millətin harayı (Həsrət şeirləri və bayatıları). Bakı: Nurlan, 2007.
8. Radpur Ə. Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005). Filol. üzrə fəls. d-r... Bakı, BDU, 2013.
9. http://azkurs.org/guney-azerbaycanda-edebi-surec1979-2014-ci-iller.html
10. http://azkurs.org/umidim-haqdr-haqldr-yolum-kerim-mesruteci-sonmez.html
11. https://525.az/site/?name=xeber&news_id=41460#gsc.tab=0

**Кюрсюмханум Тахирли**

**Общественно-политическая лирика в Южно-Азербайджанской литературе**

***РЕЗЮМЕ***

После иранской революции в Южно-Азербайджанской литературе усилился национализм, тюркизм и чувство национального самосознания. Это было в основном отражено в стихах, написанных на публичной тематике. Актуальные проблемы общества и социально-политические процессы в поэзии Южного Азербайджана в 1980-1990 годах стали основной темой литературы. Агшин Агакеримли, Садиар Элоглу, Араз Ахмедоглу,

Хади Карачай и другие способствовали распространению независимых, демократических идей в своих творческих работах.

**Kursumkhanim Tahirli**

**Social-political lyrics in South Azerbaijan literature**

***SUMMARY***

After the Iranian revolution, nationalism, Turkishism and sense of national consciousness became stronger in South Azerbaijan literature.This was mainly reflected in the poems written on public theme. Actual problems of society and socio-political processes in the poetry of Southern Azerbaijan in 1980-1990 have become the main theme of literature. Agshin Agakerimli, Sadiar Eloğlu, Araz Ahmedoglu, Hadi Karachay and others served to spread the independent, democratic ideas in their creative works.

*Redaksiyaya daxil olma tarixi: 13.03.2018*
*Çapa qəbul olunma tarixi: 22.05.2018*

Filologiya üzrə fəlsəfə doktoru, dosent **Aytac Zeynalova**
tərəfindən çapa tövsiyə olunmuşdur